# Mədəniyyət və İncəsənət Universitetində görüş

**Oktyabrın 25-də mədəniyyət naziri Adil Kərimli Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin (ADMİU) kollektivi ilə görüşüb.**



Mədəniyyət Nazirliyindən verilən məlumatda bildirilir ki, ali təhsil ocağı haqqında söz açan nazir universitetin zəngin ənənələrinin olduğunu, məzunlarının mədəniyyətimizin inkişafına mühüm töhfələr verdiklərini deyib. Qeyd olunub ki, Prezident İlham Əliyevin liderliyində ölkəmizdə bütün sahələr kimi, mədəniyyətin də inkişafına xüsusi diqqət yetirilir. Müvafiq sahə üzrə pedaqoji kollektivin əməyi qiymətləndirilir, müxtəlif təltif və mükafatlara layiq görülürlər.

Qeyd olunub ki, Mədəniyyət Nazirliyi tərəfindən kadr hazırlığına böyük əhəmiyyət verilir və bu sahədə Elm və Təhsil Nazirliyi ilə sıx əməkdaşlıq mövcuddur. Çünki mədəniyyət sahəsində keyfiyyətin yüksəldilməsi bilavasitə kadr hazırlığı ilə bağlıdır. Bu istiqamətdə inkişafa nail olmaq üçün gənclərin maraqları, seçdikləri ixtisaslar haqqında fikirlərinin nədən ibarət olduğunu öyrənmək vacibdir. Çağımızda sürətli innovativ yeniliklərə şahid olsaq da, süni intellekt inkişaf etsə də, mədəniyyət sahəsi sırf insan amilinə, istedadlı, bacarıqlı və ixtisaslı kadrlara bağlıdır. Diqqətə çatdırılıb ki, Mədəniyyət Nazirliyi mədəniyyət və yaradıcı sənayelər (MYS) üzrə kadr potensialının inkişaf etdirilməsini prioritet hesab edir. Bu məqsədlə elan olunan təqaüd proqramı çərçivəsində ilk olaraq 20 tələbənin xaricdə bakalavriat və magistratura səviyyələrində təhsilinə dəstək veriləcək.



Kino sahəsinin inkişafından da danışan nazir ötən il Azərbaycan Respublikasının Kino Agentliyi (ARKA) ilə birgə dövlət sifarişi və dəstəyi ilə istehsal ediləcək film layihələri müsabiqəsinin keçirildiyini deyib. Söyləyib ki, bu müsabiqə vasitəsilə artıq 40-dan çox film istehsalata buraxılıb. Nazirlik tərəfindən tələbə filmlərinin istehsalına da dəstək göstəriləcək.

ADMİU-nun rektoru, Əməkdar incəsənət xadimi, professor Ceyran Mahmudova kadr hazırlığının çox vacib məsələ olduğunu söyləyib, təhsil ocağı ilə ARKA arasında əməkdaşlıqla bağlı müqavilənin imzalandığını deyib. Vurğulanıb ki, bu müqavilə nəticəsində 12 film layihəsi üzrə işlərə başlanılıb. Həmin layihələrdən 6-sı ekranlaşdırılıb, qalan 6 layihə isə çəkiliş prosesindədir. Altı layihədən biri olan - ADMİU-nun tələbəsi Kamal Müşfiq İbadovun "Motivator" filmi Sergey Gerasimov adına Ümumrusiya Dövlət Kinematoqrafiya Universitetinin təşkilatçılığı ilə Moskvada keçirilən "Yüksəliş" beynəlxalq tələbə film festivalında "Ən yaxşı sənədli film rejissoru" nominasiyasında mükafata layiq görülüb. Həmçinin ADMİU festivalda fəal iştirakına görə diplomla təltif edilib.

Sonra nazir təhsil ocağının professor-müəllim və tələbə heyətinin dərslik və dərs vəsaitlərinin nəşri, Mədəniyyət Nazirliyi tərəfindən aktyorlara təyinatın verilməsi, gənclərin kino sahəsinə marağının artırılması, ADMİU tələbələrinin teatrlara ödənişsiz girişi, magistratura səviyyəsində təhsil, təhsil menecerləri, təhsil sahəsində yeni ixtisaslar və s. mövzularda təklifləri dinləyib, onları maraqlandıran sualları cavablandırıb.

**Aygün İBRAHİMOVA,**
**"Respublika".**

Respublika .- 2024.- 27 oktyabr (№ 237).- S.11.